Rəhimova M.S.♦

DOI: 10.25108/2304-1730-1749.iolr.2026.84.140-145
UOT: 342.7:004

Rəqəmsal insan hüquqları və onların layiqli həyata təsiri

Xülasə: Tədqiqatda müəllif rəqəmsal insan hüquqlarının dördüncü nəsil insan hüququ kimi müəyyənləşdirilməsinə dair mübahisələrə aydınlıq gətirərək bu istiqamətdə fərdi arqumentlərini irəli sürür, eyni zamanda rəqəmsal insan hüquqlarının məzmunu və xüsusiyyətlərinə dair bir sıra ümumiləşdirmələr aparır. Rəqəmsal hüquqların insanın layiqli həyatına təsiri və müasir dövrdə onun əsas elementlərindən biri olması məqalədə qarşıya qoyulan ikinci vacib məqsədin məzmununu təşkil edir. Müəllif kiberməkanda yeni rəqəmsal hüquqların yaranması ilə bərabər rəqəmsal öhdəliklərin də formalaşmasına dair novator istiqamət və müəyyən təkliflər irəli sürür.

Açar sözlər: rəqəmsal insan hüquqları, kiberməkan, layiqli həyat hüququ, rəqəmsal texnologiyalar, süni intellekt, dördüncü nəsil insan hüquqları, dövlət öhdəlikləri.

I. Giriş

Texnoloji tendensiyaların ağlasığmaz sürətlə inkişafı və bundan qaynaqlanaraq insan hüquqlarının kiberməkanda həyata keçirilməsi bizi müvafiq istiqamətdə nəzəri tənzimləməni yenidən həyata keçirməyə vadar edir. Müasir dövrdə insanın real həyatda sahib olduğu əksər hüquqlar İnternet məkanında da mövcuddur və onların realizəsi insanın gündəlik həyatının mühüm hissəsini təşkil edir. Danılmaz faktdır ki, bu gün insanlar İnternetdən asılı vəziyyətdə yaşayır, hətta artıq müəyyən regionlarda bəzi sosial, iqtisadi və mədəni hüquqlar yalnız İnternet vasitəsilə həyata keçirilir. Gələcəkdə bu halın daha da geniş vüsət alacağı hər birimizi dərindən düşündürməlidir.

Müəlliflər sürətlə artan bu rəqəmsal transformasiyanın fundamental insan hüquqlarına təsirini istisna etmir. Onların fikrincə, qlobal informasiya insan və vətəndaş hüquqlarının yaradılması ilə nəticələnə bilər [16]. Rəqəmsal inqilabın baş verməsi XXI əsrdə hüquq sahəsində yeni anlayış olan rəqəmsal insan hüquqlarının meydana gəlməsi ilə nəticələnir. Rəqəmsal hüquqlar insanların informasiya texnologiyalarından istifadə nəticəsində mövcud iradə ifadəsini bildirir. Onlar ənənəvi hüquqları təkmilləşdirməklə bərabər, dövrün reallığına uyğunlaşdırır və effektiv realizəsinə şərait yaradır. Məhz buna görədir ki, onların məzmununun və insan insan hüquqları sistemində tutduğu yerin müəyyənləşdirilməsi sahəsində son dövrlərdə hüquq alimləri tərəfindən aktiv tədqiqatlar aparılır. Məsələnin birinci tərəfi rəqəmsal inqilab burulğanında insan hüquqları nəsillərinə dair müfəssəl təsnifatın aparılmasıdırsa, ikinci tərəfi rəqəmsal hüquqların insana necə xidmət etməsi, kiberməkanda onu texnoloji risklər və hüquqpozmalardan qorumasıdır. Öncəki tədqiqatlarımızda geniş yer verdiyimiz layiqli həyat hüququna dair təhlillər bu tədqiqatda özünü başqa tərəfdən müəyyən edir və bir sıra tərəddüdlər doğurur. Belə ki, dördüncü nəsil insan hüququ kimi mübahisə doğuran rəqəmsal insan hüquqlarının insanın layiqli həyatına təsiri varmı? Və ya rəqəmsal insan

♦ **Rəhimova Mələkxanım Seyfulla qızı** - Bakı Dövlət Universiteti Hüquq fakültəsi İnsan hüquqları və informasiya hüququ UNESCO kafedrasının müəllimi (Azərbaycan). E-mail: melek.rahimovafff@gmail.com. https://orcid.org/0009-0009-3879-361X

hüquqları da layiqli həyat hüququnun müstəqil elementini təşkil edirmi? Bu suallara cavab tapmağa çalışacağıq.

II. Rəqəmsal insan hüquqlarının anlayışı və məzmunu

Rəqəmsal insan hüquqları – müxtəlif rəqəmsal mühitlərdə insan hüquq və azadlıqlarının həyata keçirilməsi nəticəsində yaranmış yeni hüquqlardır. Başqa sözlə, ənənəvi hüquqların kiberməkanda mövcudluğu insan hüquqlarının rəqəmsal növünü meydana çıxarır. Rəqəmsal insan hüquqlarının tərifinə dair vahid fikir yoxdur. Bəziləri onu hətta süni intellektin ictimai hüquq kontekstində tətbiqinə dair imkan və çətinliklərin cəmi kimi şərh edir [13, s.1].

Rəqəmsal insan hüquqlarının obyektivləşdirilməsi üzərində tətqiqat aparan müəlliflərdən B. Weston və N. Bobbio texnoloji təbiətə malik olan dördüncü nəsil insan hüquqlarının müəyyənləşməsinə əsaslı ehtiyac olduğu qənaətindədirlər [4, s. 207-206]. Ənənəvi insan hüquqları olan hər üç nəsil insan hüququ ilə bərabər dövrün tələbi kimi yeni hüquqların yaranması nəsillər sistemində dördüncü və beşinci nəsil insan hüquqlarını formalaşdırır. Onların hər ikisinə texnologiya ilə əlaqəli hüquqlara aid edilir və özündə rəqəmsal həyat tərzi, İnternet, kommunikasiya, gen mühəndisliyi və s. istiqamətləri birləşdirir [18, s.75].

Bielyakov rəqəmsal hüquqların rəqəmsal dövrə keçidin məhsulu olduğunu əsas gətirərək yeni nəsil insan hüququ formalaşdırdığını iddia edir [5]. Rəqəmsal hüquqlar mövcud ənənəvi hüquqların həyata keçirilməsinə xidmət edən vasitə deyil, sosial münasibətlərin de-fakto tənzimləyicisidir və onların məzmununun müasir texnoloji kontekstdə transformasiyasını təşkil etməklə əvvəlki insan hüquqları nəsillərini aşır [9, s. 23].


Professorlar C.Rodrigues və A.Campinanın fikrincə isə kiberməkan və rəqəmsal mühit heç bir insan hüququ yaratmır, onlar sadəcə insanların gündəlik hüquqlarının yeni təzahür formasını ərsəyə gətirir. Onlar bunu rəqəmsal hüquqların hər birinin artıq beynəlxalq sənədlərdə əksini tapması ilə izah edirlər [15, s.628-629]. L.B.Vasylchuk rəqəmsal insan hüquqlarının müstəqil normativ kateqoriya tutmamasını həmin hüquqların Avropa Konvensiyasının müvafiq maddələri üzrə şərh edilməsi ilə əsaslandırır [17, s.276]. Digər qrup müəllifələr isə rəqəmsal insan hquqlarının yaranmasını insan hüquqlarınnı təkamül prosesi kimi rəqəmsal transformasiyanın məhsulu hesab edirlər [8]. K.Vaşak tərəfindən 1977-ci ildə irəli sürülmüş insan hüquqları nəsilləri təsnifatının genişləndirilməsinə əsas olduğunu iddia edən müəlliflər də kifayət qədər çoxdur[6].

Bununla bərabər, son dövrdə İnternet məkanından istifadənin əhəmiyyətli dərəcədə genişlənməsi insanları gündəlik müxtəlif tələbatlarını rəqəmsal mühitdə icra etməyə vadar edir. Tədqiqatçılar, real həyatda mövcud olan bütün insan hüquqlarının kiberməkanda da mövcudluğunu iddia edirlər[10, s.77]. Biz də bu fikrə tərəfdar çıxaraq hər üç nəsil üzrə əksər insan hüquqlarının virtual məkanda mövcudluğuna inanırıq. İnternetin həm özünün insan hüquqları kimi tanınması, həm də İnternet vasitəsilə bir sıra hüquqların kiberməkanda həyata keçirilməsi müvafiq arqumenti təsdiqləyir [12, s. 402]. Xüsusən, sosial, iqtisadi, mədəni və bəzi yeni nəsil insan hüquqlarının virtual mühitdə də həyata keçirilməsi buna əyani misaldır. Təhlil edilən müəlliflərin tədqiqatlarını ümumiləşdirərək rəqəmsal insan hüquqlarının bir sıra əlamətləri ilə digər ənənəvi insan hüquqlarından fərqləndiyini deyə və rəqəmsal hüquqların özləri üçün də müəyyən xüsussiyyətlər müəyyənləşdirə bilərik:

- Birincisi, rəqəmsal insan hüquqları müstəqillik məhfumundan məhrumdurlar. Onlar həm İnternet əlçatanlığı, həm də digər üç nəsil insan hüquqları ilə asılılıq nümayiş etdirirlər;
- İkincisi, rəqəmsal insan hüquqları bu hüquqlar törəmə xarakter daşıyaraq ənənəvi hüquqların kiberməkana uyğunlaşdırılması prosesində ərsəyə gəlir;

• Üçüncüsü, rəqəmsal insan hüquqları zərurətdən meydana gəlmişdir. O kiberməkanda mövcud risklərə qarşı insanların hüquq və azadlıqlarının qorunmasına xidmət edir;

Bununla bərabər, bəzi hallarda kiberməkandan aktiv və düzgün olmayan istifadə özü də ənənəvi insan hüquqlarını təhdid altında qoya bilər. Müəlliflər rəqəmsal mühitdə ictimati hüququnun əsas çətinliklərinin bunlar olduğunu qeyd edilər [13, s. 2].



III. Rəqəmsal insan hüquqlarının realizəsində dövlət fəaliyyəti və layiqli həyat hüququ

Rəqəmsal texnologiyalın meydana gəlməsi və onlardan istifadə yeni rəqəmsal hüquqlar yaratdığı kimi yeni fəzifələr və öhdəliklər də formalaşdırır. Hansı ki bu yeni öhdəliklər ənənəvi insan hüquqları nəsilləri dair mükəlləfiyyətlərdən fərqli xüsusiyyətləri ilə seçilir.

Müəlliflər düşünür ki, rəqəmsal hüquqlar və cəmiyyət həyatında sosial münasibətlərin rəqəmsallaşması insanın ləyaqət hüququnu daha da möhkəmləndirməyə xidmət etməlidir [11]. Bu istiqamətdə şəffaflıq, bərabərlik, etik prinsiplər gözlənilməli, insan ləyaqəti daima ən ali prinsip kimi qəbul edilməlidir. Bu istiqamətdə Normativ ekvivalentlik nəzəriyyəsi də rəqəmsal hüquqların ləyaqətin qorunmasında ənənəvi hüquqlarla eyni məqsədə xidmət etdiyini təsdiqləyir [3]. İnsan ləyaqətinin həm prinsip, həm dəyər, həm də hüquq olması real həyatda olduğu kimi kiber mühitdə də öz əksini tapması rəqəmsal hüquqların insanın layiqli həyatının təmin olunmasına xidmət etdiyi fikrini söyləməyə əsas verir. Süni intellekt və rəqəmsal tendensiyaların tezliklə insan rifahına xidmət edəcəyini müdafiə edən müəlliflərin [7] arqumentləri artıq öz bəhrəsini verməyə başlayıb. Bu gün rəqəmsal mühit insanın gündəlik maddi və mənəvi tələbatlarının ödənilməsinə yönəlmiş sosial, iqtisadi, mədəni, bəzi hallarda isə mülki və siyasi hüquqların təmin olunmasında əvəzsiz rola malikdir. Bu isə məhz İnternetə əlçatanlılığı labüd edən mühüm nüans kimi bu sahədə dövlət tənzimləməsinə dair öhdəliklər formalaşdırır. İnternetə çıxış kor-koranə mövcud olmadığı kimi bu kiber landşaftda hüquqların həyata keçirilməsi də birbaşa dövlət dəstəyi ilə mümkün olur. Deməli, dövlətlər insanların rəqəmsal hüquqlarının realizəsində mükəlləfiyyətlidir. Burada incə məqam isə həmin hüquqların real həyatda neqativ və pozitiv olmasından asılı olmayaraq dövlətlər üçün pozitiv öhdəlik formalaşdırmasından ibarətdir. İnkar edilməz faktdır bu rəqəmsal insan hüquqlarınnı təminatı İnternətə əlçatanlılığı şərtləndirir [1, s.220].

Müəlliflər rəqəmsal mühitdə öhdəliklərin hüquqi təbiəti və strukturu sualına qəti cavabı olmadığı qənaətindədirlər [2, s. 26]. Lakin bizim fikrimizcə, rəqəmsal hüquqların təminatında da dövlət mükəlləfiyyətlidir. Lakin bu sahədə doktrinal tənzimləmənin qeydri mövcudluğu məsələni çətinləşdirir. Xüsusən, 2018-ci ildə baş vermiş Cambridge Analytica qalmaqalı bu istiqamətdə tənzimləmənin olmasını zəruriləşdirir [19, s. 282].

IV. Nəticə

Tədqiqatımızın yekunu öz əksini aşağıdakı nəticələrdə tapır:

- Son illərdə texnoloji sahədə sürətli inkişafın nəticəsi kimi rəqəmsal inqilabın baş verməsi səbəbindən ənənəvi insan hüquqları nəsillərinə bölünmə artıq bəzi məsələləri tam tənzimləməyə qadir deyil. Məhz buna görədir ki, rəqəmsal insan hüquqları dördüncü nəsil insan hüququ kimi müvafiq təsnifatda öz yerini alır.Onlar ənənəvi hüquqları təkmilləşdirməklə bərabər, dövrün reallığına uyğunlaşdırır və effektiv realizəsinə şərait yaradır.Rəqəmsal insan hüquqları – müxtəlif rəqəmsal mühitlərdə insan hüquq və azadlıqlarının həyata keçirilməsi nəticəsində yaranmış yeni hüquqlardır.
- Hər üç nəsil üzrə əksər insan hüquqlarının virtual məkanda mövcudluğu rəqəmsal hüquqların törəmə xarakterli olduğunu deməyə əsas verir. Onlar ənənəvi hüquqların kiberməkana uyğunlaşdırılması prosesində ərsəyə gəlir;
- İnsan ləyaqətinin həm prinsip, həm dəyər, həm də hüquq olması real həyatda olduğu kimi kiberməkanda da öz əksini tapması rəqəmsal hüquqların insanın layiqli həyatının təmin olunmasına xidmət etdiyi fikrini söyləməyə əsas verir.
- Rəqəmsal insan hüquqları müstəqillik məhfumundan məhrumdurlar. Onlar həm İnternet əlçatanlığı, həm də digər üç nəsil insan hüquqları ilə asılılıq nümayiş etdirirlər.
- Rəqəmsal insan hüquqları zərurətdən meydana gəlmişdir. O kiberməkanda mövcud risklərə qarşı insanların hüquq və azadlıqlarının qorunmasına xidmət edir;
- Rəqəmsal texnologiyalın meydana gəlməsi və onlardan istifadə yeni rəqəmsal hüquqlar yaratdığı kimi yeni vəzifələr və öhdəliklər də formalaşdırır. Hansı ki bu yeni öhdəliklər ənənəvi insan hüquqları nəsilləri dair mükəlləfiyyətlərdən fərqli xüsusiyyətləri ilə seçilir və rəqəmsal öhdəliklər adlanır. Eyni zamanda bu proses ənənəvi hüquqların da tənzimlənməsinə dair yeniliklər tələb edir.

Biblioqrafiya

1. Rəhimova M.S. İnformasiya cəmiyyəti kontekstində layiqli həyat hüququnun realizəsi və rəqəmsal tendensiyalar. / Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə və «Konstitusiya və Suverenlik İlinə həsr olunmuş «Heydər Əliyevin dövlət təhlükəsizliyi siyasəti: tarixi nailiyyətlər və müasir çağırışlar» mövzusunda respublika elmi-praktik konfransının materialları. I cild. – 07 may 2025. S. 219-223.

2. Adelshin R.N. Obligations in the Digital Environment: Legal Doctrine. // Legal Issues in the Digital Age. – 2024. No. 5(3), pp. 4-30.

3. Alsharif M., Hnit H. Digital human rights: Legal debates and emerging foundations under the international bill of human rights. // Social Sciences & Humanities Open. –2025. No. 12, pp. 1-10.

4. Babazadeh M.H. An Introduction to the Fourth Generation of Human Rights; Supporting Human Dignity in the Age of Communications. Publisher. News Sciences,–2020, pp. 195-212.

5. Bieliakov K. I., Tykhomyrov, O. O., Radovetska, L. V. & Kostenko, O. Digital Rights in the Human Rights System. // Inter EU Law East journal for the international and european law economics and market integrations,–2023. No10(1), pp. 183-207.

6. Domaradzki S., Khvostova M., Pupovac D. Karel Vasak's Generations of Rights and the Contemporary Human Rights Discourse. // Human Rights Review,–2019.No20(4), pp.423-443.

7. Ferguson N. Preface, in Henry A. Kissinger, Graig Mundie, Eric Schmidt (2024).// Genesis.Portugal - Alfragide: Publicações Dom Quixote,–2024, pp. xi-xxii.

8. Filimonova E.A., Fadl L. R.F. The evolution of human rights in a digital society // Russian-Asian Legal Journal. –2026, pp. 19-27.

9. Jelica B. Gordanic, J.B., Becirovic Alik, M.M. The fourth generation of human rights in the digital age: the impact of the internet and modern technologies. URL: https://www.researchgate.net/publication/408369512_THE_FOURTH_GENERATION_OF_HUMAN_RIGHTS_IN_THE_DIGITAL_AGE_THE_IMPACT_OF_THE_INTERNET_AND_MODERN_TECHNOLOGIES#fullTextFileContent

10. Nastic M. The impact of the informational and communication technology on the realization and protection of human rights // Balkan Social Science Review, –2021, No. 17(84), pp. 75-97.

11. Popovych T. The Fourth Generation of Human Rights: Meaningful Content in the Digital Society.// Конституційно-правові академічні студії, – 2025, No 1, pp. 28-35.

12. Rahimova M.S. Is Internet access a unique right,an element of the right to a dignified life,or a means that ensures the right to a dignified life? // Науковий вісник Ужгородського Національного Університету, –2025. No. 89(1), pp. 401-406.

13. Rajaei M., Amiri A. Public Law Challenges in Protecting Human Digital Rights in the Age of Artificial Intelligence //Legal studies in digital age, – 2025. No. 4(3), pp. 1-7.

14. Reglitz, M. The socio-economic argument for the human right to internet access. // SageJournals, Politics, Philosophy & Economics. –2023. No. 22(4), pp. 441-469.

15. Rodrigues C.R., Campina A. Artificial Intelligence Is a New Human Rights Generation?// Perspectives of Lawand Public Administration. –2025. No. 14(4), pp. 611-631.

16. Shaelou S. L., Razmetaeva Y. Challenges to Fundamental Human Rights in the age of Artificial Intelligence Systems: shaping the digital legal order while upholding Rule of Law principles and European values. // Era Forum,– 2023, No. 24(4), pp. 567-587.

17. Vasylchuk L.B. Digital human rights in the ECHR system: doctrinal approaches to newchallenges. // Науковий вісник Ужгородського Національного Університету,Серія ПРАВО.–2026. No. 94(4), pp. 272-277.

18. Yawar M.E. The Impact of Artificial Intelligence on the International Human Rights System. Avta Globalis Humanitatis et Linguarum.–2025. No. 2(2), pp. 62-78.

19. Zalnieriute M. From Human Rights Aspirations to Enforceable Obligations by Non-State Actors in the Digital Age: The Example of Internet Governance and ICANN. Published in Yale Journal of Law and Technology. // SSRN Elektronic Journal. – 2019, No. 21(1), pp. 278-336.

Məqalə daxil olmuşdur: *25 iyul 2026-ci il*
Çapa qəbul edilmişdir: *12 avqust 2026-ci il*

Rahimova M.S.♦

DOI: 10.25108/2304-1730-1749.iolr.2026.84.140-145
UDC: 342.7:004

Digital Human Rights and Their Impact on a Dignified Life

Abstract: In the study, the author sheds light on the debates surrounding the definition of digital human rights as the fourth generation of human rights, puts forward his personal arguments in this direction, and at the same time makes a number of generalizations regarding the content and characteristics of digital human rights. The impact of digital rights on a decent human life and their being one of its main elements in the modern era constitute the content of the second important goal set in the article. The author puts forward an innovative direction and certain proposals regarding the formation of digital obligations along with the emergence of new digital rights in cyberspace.

Keywords: digital human rights, cyberspace, right to a decent life, digital technologies, artificial intelligence, fourth generation human rights, state obligations.

The article was submitted: *2026 July 25*
Accepted for publication: *2026 August 12*

Рагимова М.С.♦

DOI: 10.25108/2304-1730-1749.iolr.2026.84.140-145
УДК: 342.7:004

Цифровые права человека и их влияние на достойную жизнь

Аннотация: В исследовании автор освещает дискуссии вокруг определения цифровых прав человека как прав человека четвертого поколения, выдвигает собственные аргументы в этом направлении и одновременно делает ряд обобщений относительно содержания и характеристик цифровых прав человека. Влияние цифровых прав на достойную жизнь человека и их роль как одного из ее главных элементов в современную эпоху составляют содержание второй важной цели, поставленной в статье. Автор предлагает новаторское направление и ряд предложений относительно формирования цифровых обязательств наряду с появлением новых цифровых прав в киберпространстве.

Ключевые слова: цифровые права человека, киберпространство, право на достойную жизнь, цифровые технологии, искусственный интеллект, права человека четвертого поколения, государственные обязательства.

Дата поступления: *25 июля 2026 г.*
Дата принятия в печать: *12 августа 2026 г.*

♦ **Rahimova Melekhanim Seyfulla** - lecturer of the UNESCO Department of Human Rights and Information Law, Faculty of Law, Baku State University (Azerbaijan). E-mail: melek.rahimovafff@gmail.com https://orcid.org/0009-0009-3879-361X

♦ **Рагимова Мелекханым Сейфулла кызы** - преподаватель кафедры ЮНЕСКО «Права человека и информационного права» юридического факультета Бакинского государственного университета (Азербайджан). E-mail: melek.rahimovafff@gmail.com https://orcid.org/0009-0009-3879-361X